# Azərbaycan-İtaliya münasibətləri yüksək səviyyədədir

## *Ölkələrimiz arasındakı əlaqələr strateji tərəfdaşlıq xarakteri daşıyır*

**Hər iki dövlət arasındakı siyasi dialoq, əməkdaşlıq və etimad şəraiti həm də Avropa İttifaqı ilə daha möhkəm əlaqələrin qurulmasında çox əhəmiyyətlidir və bu, Azərbaycanın strateji maraqları ilə səciyyələnir. Azərbaycan Prezidenti İlham Əliyevin "Milan Expo 2015" Beynəlxalq sərgisində Azərbaycan pavilyonunun açılışında iştirak etmək üçün İtaliya Respublikasına yüksək səviyyədə keçən işgüzar səfəri bunu bir daha təsdiqləyir. Bu səfər çərçivəsində keçirilən görüşlərin müsbət nəticələri ikitərəfli münasibətlərin inkişafında yeni perspektivlərin olduğunu göstərir.**

Azərbaycan Avropanın enerji təhlükəsizliyində etibarlı tərəfdaş, Avrasiya məkanında mühüm tranzit ölkə və iqtisadiyyatın müxtəlif sahələrinə investisiya yatırılması üçün cəlbedici məkan, yerləşdiyi regionda sülhün, əmin-amanlığın, qarşılıqlı maraqlara əsaslanan əməkdaşlığın qarantıdır. Bu siyasət, təbii ki, qarşı tərəfin də marağında olduğu üçün ona diqqət göstərən dövlətlərin sayı daim artır. İtaliya da həmin dövlətlərdən biri kimi Azərbaycanla əməkdaşlığa böyük önəm verir. Belə ki, iki ölkə arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə var və bu zəmində siyasi əlaqələr ildən-ilə daha da möhkəmlənir. Bu bütün başqa sahələrə də müsbət təsir göstərir. Belə ki, İtaliya Azərbaycanın bir nömrəli ticarət tərəfdaşıdır. Hazırda Azərbaycanda 60-dan çox İtaliya şirkəti fəaliyyət göstərir.

"Milan Expo 2015" ümumdünya sərgisində Azərbaycan pavilyonunda təşkil olunan "Milli gün" mərasimindəki çıxışı zamanı cənab İlham Əliyev bildirib ki, İtaliya bizim üçün çox yaxın ölkədir və Azərbaycan əhalisi İtaliyaya çox böyük sevgi ilə, rəğbətlə yanaşır. Azərbaycanda olan, işləyən, yaxud da turist kimi gələn italyanlar, əlbəttə bunu hiss edirlər. İqtisadi əlaqələrin böyük hissəsinin enerji siyasəti ilə bağlı olduğunu vurğulayan dövlətimizin başçısı bildirib: "Bu gün Azərbaycan və İtaliya ölkələrimiz, bölgələrimiz və Avropa üçün çox önəmli olan "Cənub" qaz dəhlizinin icrası ilə birgə məşğuldur. "Cənub" qaz dəhlizi Bakıdan, Azərbaycandan başlayır və İtaliyada başa çatır. Üç min kilometrdən çox uzunluğu olan bu qaz kəməri gələcəkdə Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında öz müsbət rolunu oynayacaq. Bu gün İtaliya ilə Azərbaycan arasındakı əlaqələrin yüksək səviyyədə olması imkan verir ki, biz "Cənub" qaz dəhlizini vaxtında icra edək. Beləliklə, bundan sonra uzun illər, onilliklər ərzində İtaliya və Azərbaycan, o cümlədən enerji siyasəti ilə bir-birinə daha da sıx bağlı olacaq. Bir sözlə, bizim ikitərəfli əlaqələrimiz sürətlə inkişaf edir. Bu əlaqələrin inkişafı üçün çox gözəl imkanlar var. İki ay ərzində artıq bir milyondan çox qonaq Azərbaycan pavilyonunda ölkəmizlə tanış olmuşdur. Bu, özlüyündə bir göstəricidir. Bu onu göstərir ki, ölkəmizə çox böyük maraq var və bu maraq qarşılıqlıdır".

Xatırladaq ki, "Milan Expo 2015"də Azərbaycan milli pavilyonunun təməli 2014-cü ilin iyulunda qoyulub. Ümumilikdə pavilyonda hazırlıq və tikinti işləri 18 ay ərzində davam edib. Azərbaycan milli pavilyonu üzrə təşkilati işlər Heydər Əliyev Fondu və Heydər Əliyev Mərkəzi tərəfindən aparılıb. Ümumi sahəsi 1800 kvadratmetr olan dördmərtəbəli milli pavilyonda sərginin builki devizinə uyğun olaraq Azərbaycanın tarixi və mədəni irsi, zəngin ekoloji potensialı, flora və faunasının zənginliyi, nadir biomüxtəlifliyi öz əksini tapıb.

"Milan Expo 2015" sərgisinin baş direktoru Bruno Antonio Pasquino öz çıxışında dövlətimizin başçısına xitabən bildirib: "Cənab Prezident, Sizin burada olmağımız nəinki Azərbaycan Respublikasının beynəlxalq əməkdaşlığa verdiyi dəyəri, o cümlədən ölkələrimizi bağlayan qarşılıqlı hörmət və böyük ehtirama əsaslanan münasibətləri nümayiş etdirir.

Milana, burada müzakirə olunan mövzulara verdiyiniz əhəmiyyətlə yanaşı, xatırlatmaq kifayətdir ki, Azərbaycan "Expo"ya üçüncü olaraq qoşulmuş ilk ölkələr sırasındadır və sərgiyə hazırlıq mərhələsində ən fəal iştirakçılardan biri olub".

Prezident İlham Əliyevin İtaliya Respublikasının Baş naziri Matteo Renzi ilə geniş tərkibdə görüşündə ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyi bildirilib, qarşılıqlı səfərlərin əhəmiyyəti vurğulanıb. Ölkələrimiz arasındakı ikitərəfli münasibətləri dostluq və tərəfdaşlıq əlaqələri kimi dəyərləndirən cənab Matteo Renzi Azərbaycan-İtaliya əməkdaşlığının bundan sonra da dərinləşdirilməsi əzmində olduğunu bəyan edib.

Regional, beynəlxalq və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılan söhbət zamanı ikitərəfli münasibətlərin siyasi, iqtisadi, energetika, mədəniyyət və digər sahələrdə uğurla inkişafından məmnunluq bildirilib. İnfrastruktur, kənd təsərrüfatı, əczaçılıq, nəqliyyat, səhiyyə və digər sahələrdə əlaqələrin genişləndirilməsi üçün böyük potensialın olduğu vurğulanıb. Energetika sahəsində əlaqələri uğurla inkişaf etdiyi diqqətə çatdırılıb, qeyri-energetika sektorunda əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminlik ifadə olunub. Ölkələrimiz arasındakı ikitərəfli münasibətlərin Azərbaycan-Avropa İttifaqı əlaqələri baxımından önəmi bəyan edilib.

Bu fikirlərin ümumi yekununa gəldikdə deyə bilərik ki, İtaliya ilə Azərbaycan arasında səmərəli siyasi və iqtisadi dialoqa, xüsusilə enerji sahəsində əməkdaşlığa əsaslanan sıx münasibətlər var. Təbii ki, iqtisadi tərəfdaşlığın təməlində enerji sahəsi dayanır. İtaliya hökuməti TAP və TANAP boru kəməri layihələri daxil olmaqla, Azərbaycan qazını ixrac edəcək "Cənub dəhlizi"ni dəstəkləyir. Trans-Adriatik boru kəməri vasitəsilə Azərbaycan həm İtaliyanın, həm də Avropa İttifaqının enerji təhlükəsizliyinin təmin olunmasında çox əhəmiyyətli yer alacaq.

**Şükür ƏLİZADƏ,**
**"Respublika".**